# Azərbaycan idman ölkəsi kimi böyük nüfuz qazanmışdır




**Azərbaycan müstəqillik qazandıqdan sonra ötən əsrin 90-cı illərində ölkədə mövcud olan böhran bir çox sahələrin, o cümlədən idmanın inkişafına da mənfi təsir etmiş, idman dövlət qayğısından kənarda qalmışdı. Ulu öndərin hakimiyyətə gəlməsi ilə idman sahəsi də ölkənin inkişaf istiqamətlərindən birinə çevrildi. Aydın məsələdir ki, ölkənin hərtərəfli tərəqqisi üçün idman sahəsinin inkişafı olduqca önəmli faktorlardan biridir. Buna səbəb kimi bir çox amili qeyd etmək olar. Bunlardan biri idmanın kütləvi xarakter daşımasıdır ki, ölkənin beynəlxalq müstəvidə tanınması üçün kütləvilik böyük məna ifadə edir. Heydər Əliyev bunu çox yaxşı başa düşürdü. O bilirdi ki, ölkənin parlaq gələcəyinin təməli düzgün gənclər və idman siyasətinin yeridilməsini tələb edir. Bu mənada ümummilli liderin fərmanına əsasən 1994-cü ildə Azərbaycanda Gənclər və İdman Nazirliyi yaradıldı. Bu müstəqil respublikamızın idman tarixinin başlanğıcı idi. Növbəti il ulu öndərin göstərişi ilə İdman fondu yaradıldı və ora Prezident Fondundan vəsait ayrıldı. Bu da Heydər Əliyevin idman siyasətinə nə qədər böyük önəm verdiyinin göstəricisi idi.**

Qeyd etdiyimiz kimi ulu öndərin yenidən hakimiyyətə qayıdışı gənclər və idman siyasətini ölkənin prioritet inkişaf istiqamətlərindən birinə çevirdi. Cənab İlham Əliyevin Prezident seçilməsindən sonra isə Azərbaycanda idman sahəsi özünün intibah dövrünə qədəm qoydu. Ulu öndərin açdığı cığırdan heç bir zaman sapılmadı və ölkədə idman siyasəti yeni mərhələyə keçid etdi. Ölkə başçısı, Milli Olimpiya Komitəsinin sədri İlham Əliyevin hakimiyyətə gəlişindən qısa müddət sonra "Azərbaycan Respublikasında 2004-2008-ci illər ərzində bədən tərbiyəsi və idmanın inkişafı" dövlət proqramı qəbul edildi.

Bu gün müasir Azərbaycan idmanın kütləviliyini təmin edən, peşəkar təşkilatçılıq ənənələrinə sahib ölkədir. Artıq uzun illərdir ki, Azərbaycanda mötəbər idman yarışları keçirilir. Azərbaycanda Olimpiya Hərəkatı və idman uğurla, sürətlə inkişaf edir. Ölkəmiz dünyada idman ölkəsi kimi tanınır. Əminliklə söyləmək olar ki, idman respublikamızda dövlət siyasətidir. Zaman keçdikcə dövlət bu siyasətin bəhrəsini görmüş, ölkəmizdə idmanın hərtərəfli inkişafına nail ola bilmişdir.

Ölkəmizdə bu istiqamətdə fəaliyyət göstərən bütün qurumlar idmanın Azərbaycanda inkişaf etməsi, kütləviliyin geniş vüsət alması, eləcə də idmançılarımızın respublikamızı daha yaxşı təmsil etməsi məqsədlərini güdür.

*(ardı 6-cı səhifədə)*

# Azərbaycan idman ölkəsi kimi böyük nüfuz qazanmışdır

***Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bizim idman nəticələrimiz, uğurlarımız, qələbələrimiz, eyni zamanda, idmana dövlət tərəfindən göstərilən dəstək, dövlət proqramlarının icrası, əlbəttə ki, beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, beynəlxalq federasiyalar bizim fəaliyyətimizə çox yüksək qiymət verirlər.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**(əvvəli 1-ci səhifədə)**

Bütün bu birgə fəaliyyətin, həmin qurumlar arasında mövcud olan koordinasiyanın nəticəsində Azərbaycan beynəlxalq aləmdə idman sahəsində çox böyük uğurlara imza atmışdır. Əlbəttə, ilk növbədə, idmanla məşğul olmaq üçün ölkədə şərait yaradılmalı idi. Son illərdə bu istiqamətdə dövlət investisiyası hesabına bir çox müasir Olimpiya idman qurğuları tikilib. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycanın bölgələrində 50-dən çox müasir standartlarla ayaqlaşan Olimpiya İdman Kompleksi istifadəyə verilmişdir. Paytaxtımızda isə ən müasir idman infrastrukturu mövcuddur. Əvvəlki illərdə tikilən komplekslər əsaslı təmir olunub və eyni zamanda son illərdə bir neçə böyük stadion, idman qurğusu inşa edilib. Əlbəttə, təxminən 70 min tamaşaçı tutumuna malik olan Olimpiya Stadionunu xüsusi qeyd etmək lazımdır. Ondan əlavə Milli Gimnastika Arenası, Su İdman Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi üçün dövlət büdcəsindən böyük vəsait ayrılmışdır. Bunlarla yanaşı, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. Ümumilikdə, son illər ərzində həm bölgələrdə, həm də Bakıda idmanın inkişafına xüsusi diqqət yetirilməsi öz bəhrəsini verməkdədir.

Ölkəmiz sadəcə beynəlxalq idman yarışlarında uğurlu iştirakla deyil, həm də kütləvi turnirlərin keçirilməsi sahəsində əldə etdiyi təcrübə və yüksək təşkilatçılıq örnəyi ilə dünyanın aparıcı idman mərkəzlərindən birinə çevrilib. Təsadüfi deyil ki, ölkəmizdə hər il nüfuzlu beynəlxalq idman yarışları keçirilir. Azərbaycan müxtəlif idman növləri üzrə dünya və Avropa çempionatlarına evsahibliyi edir.

Əlbəttə, bütün bu turnirlər ölkəmizin nüfuzunun artmasına, ölkəyə turist axınına, turizm və onunla əlaqəli sektorların inkişafına xüsusi töhfələr verir. Turizm sektorunda yaşanan canlanma bilavasitə iqtisadiyyatın da inkişafına təkan verir. Belə nüfuzlu beynəlxalq yarışlardan bəhs edərkən 2015-ci ildə ölkəmizdə keçirilmiş birinci Avropa Oyunlarını xüsusi qeyd etmək istərdik. Həmin vaxt Avropa Olimpiya Komitəsinin bu qərarı qəbul etməsi Azərbaycana imkan yaratdı ki, biz bu oyunları keçirək və öz imkanlarımızı göstərək. Bu mənada cəmi 2 il yarım vaxtımız olmasına baxmayaraq, birinci Avropa Olimpiya Oyunları qısa müddət ərzində görülən hazırlıq işləri ilə Yay Olimpiya Oyunları səviyyəsində keçirildi. Bu bir daha sübut etdi ki, Azərbaycan digər nüfuzlu idman ölkələrindən geri qalmır və ölkəmiz ən böyük idman tədbirlərinə yüksək standartlara uyğun evsahibliyi etmək iqtidarındadır. Bakıdakı oyunlarda 50 ölkədən 5 mindən çox idmançı iştirak etmiş və Azərbaycan çox uğurlu nəticə əldə edərək, komanda hesabında ikinci olmuşdur.

Həmçinin, 2017-ci ildə paytaxtımızda keçirilən IV İslam Həmrəyliyi Oyunları da belə idman yarışlarındandır. Burada 54 ölkə 3 mindən çox idmançı ilə təmsil olunmuşdur. Bu yarışlarda isə Azərbaycan komanda hesabına birinci yeri tutmuşdur.

Azərbaycanda keçirilən beynəlxalq idman yarışlarına bir çox misal göstərmək olar. Lakin əlbəttə, bu yarışlardan bəziləri xüsusi vurğulanmalıdır. Formula 1 Azərbaycanda keçirilən ən kütləvi idman tədbirlərindən biridir. Bu yarışın ölkəmiz üçün çox böyük faydası var. İlk olaraq onu qeyd etmək lazımdır ki, Formula 1-in keçirildiyi şəhərlər inkişaf etmiş ölkələrin paytaxtları, yaxud böyük şəhərləridir. Belə şəhərlərin içində Bakımızın da olması bizim üçün qürurverici hadisədir. İkincisi Formula 1 Azərbaycan ölkəmizə böyük iqtisadi imkanlar gətirir. Formula 1-in multiplikativ effekti olduqca böyükdür. Bunun iqtisadi cəhətdən ölkəmizə çox böyük səmərəsi var.

Ölkəmizdə keçirilən birinci Formula 1 Qran prisindən sonra Azərbaycana kütləvi turist axını olmuşdur. Aydın məsələdir ki, bu sadəcə turizm sektorunun deyil, həm də bir çox digər sahənin canlanması deməkdir. Onu da qeyd etmək yerinə düşər ki, F-1 dünyada ən çox izlənən idman yarışlarından biridir. İzləyici kütləsi 1-2 milyard arasında dəyişən bu yarışlar dünyanın bütün ölkələrində çılğın azarkeşlərə sahibdir. 2016-cı ildən etibarən F-1 mövsümünün qran prilərindən biri ölkəmizdə keçirilir.

Bakı yarışların keçirildiyi ilk ildən etibarən müvafiq illərin ən maraqlı yarışlarına, ən gözlənilməz hadisələrinə evsahibliyi edir. Yarışların keçirildiyi Bakı Şəhər Halqası (BŞH) Qran priləri yüksək peşəkarlıqla qəbul edir. Təsadüfi deyil ki, Bakı F-1-in keçirildiyi şəhərlər arasında xüsusi populyarlıq qazanmışdır. Qısa zaman ərzində Formula 1 ab-havasına uyğunlaşan paytaxtımıza “gözlənilməzin gözlənildiyi şəhər” adı verilib. Bu populyarlığa səbəb təkcə yarışlarda qeydə alınan maralı nəticələr və podium müxtəlifliyi deyil, həm də şəhərin F-1 trekini müşayiət edən möhtəşəm aurasıdır. Qədim və müasir mədəniyyətlərin vəhdəti olan Bakı bir çox F-1 azarkeşinin ən sevimli şəhər trekinə çevrilmişdir.

İdmandan bəhs edərkən futboldan danışmamaq olmaz. Futbol birmənalı olaraq dünyanın ən məşhur idman növüdür. İdman növlərinin şahı sayılan futbolun tacı isə dünya və Avropa çempionatlarıdır. Futbol yarışları içində ən böyük nüfuza sahib olan bu iki çempionat, həm də ən çox baxılan turnirlərdir. Statistikalara görə planetin yarısından çoxunun izlədiyi dünya və Avropa çempionatları müxtəlif dövrlərdə hətta böyük müharibələrdə müvəqqəti atəşkəsin təmin edilməsinə səbəb olan kütləvi, multikultural ənənələrdir. Futbol sadəcə bir idman növü deyil, eyni zamanda insanları birləşdirən ümumi bir dəyərdir. Bu il baş tutacaq Avropa çempionatının 4 oyununun ölkəmizdə keçirilməsi isə Azərbaycanın beynəlxalq arenada qazandığı böyük nüfuzun və tolerantlığın göstəricisidir. Respublikamızda multikulturalizm dövlət siyasətinin önəmli tərkib hissələrindən biridir. Prezidentimizin də dediyi kimi, Azərbaycanda multikulturalizmin alternativi yoxdur.

Avropa çempionatının bəzi oyunlarının ölkəmizdə keçirilməsi həm ölkə futbolunun inkişafı, həm də respublikamızın beynəlxalq arenada nüfuzunun artması baxımından böyük əhəmiyyət kəsb edir. Ümid edirik ki, yaxın zamanda idmanın bu kütləti növü ölkəmizdə daha da inkişaf edəcək və millimiz belə böyük turnirlərdə iştirak edərək azərbaycanlı futbol azarkeşlərini sevindirəcək.

**İmran ƏLİYEV, “Xalq qəzeti”**